BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

№4 Humanitar elmlər seriyası 2025

## TARİX

# TARİXİ YADDAŞIN FORMALAŞMASINDA HƏRBİ MUZEYLƏR: AZƏRBAYCAN VƏ DÜNYA TƏCRÜBƏSİ

**Səidə Z.QULİYEVA*, Günel İ.ORUCƏLİYEVA†**

*Qarabağ uğrunda Vətən müharibəsinin 5 illiyinə*
*və II Dünya müharibəsinin 80 illiyinə həsr edilir.*

*Tədqiqatda tarixi yaddaşın qorunması, milli kimliyin formalaşması və cəmiyyətin ideoloji birliyinin təşəkkülündə hərbi muzeylərin rolu təhlil olunur. Tədqiqat çərçivəsində müharibələrə dair materialların milli kimlik kontekstində təqdimatı, hərbi muzeylərin ictimai şüurun formalaşmasındakı funksiyaları və kollektiv mübarizə ruhuna təsiri, eləcə də Azərbaycanda hərbi muzey işi təcrübəsinin təhlili əsas istiqamətlər kimi müəyyən edilmişdir. Araşdırmalar göstərir ki, II Dünya müharibəsindən sonra, demək olar ki, bütün iştirakçı dövlətlər öz ərazilərində hərbi muzeylər yaratmışlar. Müharibə zamanı yaşanan hadisələri yaddaşda saxlamaq və gələcək nəsillərə ötürmək məqsədilə müxtəlif sənəd və eksponatlar muzeylərdə toplanmış, həmçinin memorial komplekslər və abidələr inşa edilmişdir. Tədqiqatda Azərbaycan və beynəlxalq təcrübə müqayisəli şəkildə təhlil olunmuşdur. Nəticə etibarilə, araşdırma göstərir ki, hərbi muzeylər yalnız tarixi yaddaşın daşıyıcısı deyil, həm də gələcək nəsillərə milli dəyərlərin ötürülməsi baxımından ideoloji və maarifləndirici platforma rolunu oynayır. Vətən müharibəsindən sonra əldə edilmiş materiallar, erməni faşizminə qarşı Azərbaycan xalqının apardığı mübarizəni və əldə olunan qələbənin simvolik mənasını nümayiş etdirmək üçün müxtəlif layihələrin həyata keçirilməsinə imkan yaratmaqdadır.*

**Açar sözlər:** hərbi müzeylər, Qarabağ müharibələri, II Dünya müharibəsi, hərbi qənimətlər, milli kimlik

**https://doi.org/10.30546/458901.2025.04.3010**

Giriş. Müharibələrin doğurduğu fəlakətlərə və dərin humanitar nəticələrinə baxmayaraq, hazırda dünyanın bir sıra regionlarında silahlı münaqişələr və müharibələr davam etməkdədir. Tarixi təcrübə göstərir ki, xalqlar belə hadisələrin bir daha təkrarlanmaması üçün müxtəlif dövrlərdə baş vermiş müharibələrin və zorakılıq aktlarının izlərini gələcək nəsillərə ötürməyə çalışmış, bu məqsədlə muzeylər, memorial komplekslər və abidələr yaratmış-

* *Bakı Dövlət Universitetinin dosent; saidaquliyeva@bsu.edu.az; ORCİD İD: 0000-0003-4320-3425*
† *Bakı Dövlət Universitetinin müəllimi; gunelorujalieva@bsu.edu.az; ORCİDİD: 0000-0002-3590-6393*

lar. Bu irsi qoruyan obyektlər təkcə tarixi sənədləşdirmə funksiyası daşımır, eyni zamanda kollektiv yaddaşın və milli kimliyin formalaşmasında mühüm rol oynayır.

Müharibələr çox zaman ideoloji qarşıdurmaların nəticəsi kimi baş verir və bu ideoloji yanaşma muzey ekspozisiyalarında da əks olunur. Muzeylərdə nümayiş etdirilən hərbi eksponatlar – qələbə simvolları, qənimətlər və qəhrəmanlıq nümunələri – xalqın döyüş bacarığını, milli gücünü və müqavimət iradəsini simvolizə edən elementlər kimi təqdim olunur. Bu baxımdan, hərbi muzeylər və memorial obyektlər yalnız keçmişə deyil, həm də milli kimliyin formalaşdırılmasına yönəlmiş ideoloji vasitədir.

Mövzunun aktuallığını şərtləndirən digər amil isə Azərbaycanın zəngin hərb tarixidir. Xalqın XX əsrin əvvəllərindən etibarən erməni silahlı birləşmələri tərəfindən törədilən soyqırımı cinayətləri və etnik təmizləmə aktlarına qarşı apardığı mübarizəyə və dünya müharibələrində iştirakına aid faktların qorunması xüsusi əhəmiyyət kəsb edir. Məlumdur ki, 2020-ci ildə ermənilərin növbəti təxribatına cavab olaraq başlayan əks-hücum əməliyyatı Vətən müharibəsinə səbəb olmuşdur. Xüsusilə Vətən müharibəsində (2020) qələbədən sonra azad edilmiş ərazilərdən əldə edilən cinayət materialları, hərbi qənimətlər, insanların taleyinə aid müxtəlif materiallar qələbənin necə baş verdiyini yaddaşlarda qorumaq üçün tədbirlər görülməsini zəruri etdi və bu mövzu elmi müstəvidə aktuallıq qazandı. Bu səbəbdən tədqiqatda həm dünya, həm də Azərbaycan təcrübəsinin müqayisəli təhlili aparılmışdır. Bu mövzuya Azərbaycan tarixşünaslığında ilk dəfə müraciət edildiyi üçün elmi baxımdan əhəmiyyət daşıyır. Bu səbəbdən də tədqiqatlardan daha çox mənbələrə istinad etmişik.

Hazırda İngiltərə, Fransa, Almaniya, İtaliya, Rusiya, Ukrayna, Polşa, Avstriya, Niderland, Türkiyə, Əlcəzair, Albaniya, Azərbaycan və digər ölkələrdə hərbi muzeylər və müxtəlif memorial komplekslər fəaliyyət göstərir [4; 5; 8; 15; 16; 17; 18; 19; 23; 24; 25; 26; 27; 28; 30; 31; 33]. Həmçinin yaşanan hadisələrin xatirəsini yaşatmaq üçün abidələr və memorial komplekslər yaratmaq təcrübəsi də vardır.

Tədqiqatın məqsədlərindən biri, muzeylərin milli kimliyin formalaşmasında rolunu təhlil etmək və təhlillər əsasında təkliflər verməkdir. Araşdırmada əsas diqqət XX əsrdə baş vermiş müharibələrlə əlaqədar yaradılmış muzeylərə və memorial komplekslərə yönəldilmişdir. Tədqiqat çərçivəsində muzeylərin internet səhifələrində yer alan materiallar və mövzu üzrə aparılmış elmi tədqiqatlar araşdırmaya cəlb olunmuşdur. Metodoloji yanaşma olaraq isə müqayisəli təhlil və nəticələrin sintezi metodu əsas götürülmüşdür.

Tarixi yaddaşın və kimliyin aynası olan hərbi muzeylər. Xalqların tarixində ən mühüm hadisələrdən biri qazanılan qələbələr, aparılan mübarizələr və bu proseslərdə ortaya çıxan qəhrəmanlıq nümunələridir. Bu baxımdan,

hərbi muzeylər və onlarda toplanan eksponatlar xüsusi yer tutur. Müharibələrdə istifadə edilən əşyalar, silahlar, geyimlər, sənədlər və digər artefaktlar bu qələbələrin mahiyyətini anlamaq və dövrün reallığını daha dərindən dərk etmək üçün mühüm informasiya daşıyıcısıdır [12, 38-67; 33]. Muzeylər müəyyən dövrlərin tarixini canlandırmaq, mədəni və tarixi yaddaşı qorumaq baxımından əvəzolunmaz əhəmiyyətə malikdir. Onlar təkcə eksponatların nümayiş olunduğu məkan deyil, həm də bir xalqın kollektiv yaddaşını, tarixi kimliyini və mənəvi irsini qoruyub saxlayan elmi-mədəni ocaqlardır.

Hərbi muzeylərin eksponatları tarixçilər üçün etibarlı tədqiqat materialları, cəmiyyət üçün vətənpərvərlik hisslərinin formalaşması, hərbçilər üçün isə peşəkar hazırlıq baxımından önəmli resurslar sayılır. Bu eksponatlar xalqın döyüş yolu, müdafiə və hücum ənənələri, tətbiq olunan döyüş texnikaları və taktiki yanaşmalar barədə informasiya verməklə yanaşı, gənc nəsillərlə onların əcdadları arasında tarixi bağlılıq körpüsü yaradır. Müasir dövrdə isə muzeylər təkcə klassik sərgilərlə kifayətlənmir; dioramalar (maketlər), interaktiv panellər, audio vizual materiallar, rəqəmsal texnologiyalar vasitəsilə eksponatların təqdimatı daha təsirli və əyani hala gətirilir, bu da ziyarətçilərdə daha dərin təəssürat yaradır.

Hər bir xalqın kimliyi onun tarixində gizlidir. Tarixi muzeylər bu kimliyin daşıyıcısı kimi çıxış edir. Onlar bir millətin mədəniyyətini, qəhrəmanlıq salnamələrini, acılı-şirinli səhifələrini qoruyur [12, 38-67]. Xüsusilə də müstəqil dövlətlər üçün bu cür muzeylər milli ideologiyanın formalaşmasında mühüm yer tutur. Tarixi biliklər xalqın kollektiv yaddaşının və milli kimliyinin formalaşmasında mühüm rol oynayır. Keçmişin öyrənilməsi gələcək inkişaf proseslərinin anlaşılması və istiqamətləndirilməsi üçün zəruri amillərdən biridir. Muzeylər bu baxımdan yalnız maddi-mədəni irsin qorunması ilə məhdudlaşmır, həm də ictimai maarifləndirmə, milli ideologiyanın ötürülməsi və vətəndaşlıq şüurunun formalaşdırılmasında təsirli institutlar kimi çıxış edirlər.

Muzeylər həm öyrədir, həm də düşündürür. Bu baxımdan, muzeylər həm də qeyri-formal təhsil məkanlarıdır. Bu eksponatlar tarix dərslərində öyrənilən quru bilikləri vizual və hiss edilə bilən təcrübəyə çevirir. Uşaqlar və gənclər belə mühitlərdə keçmişin nəfəsini hiss edir, həm milli, həm də ümumbəşəri dəyərləri daha dərindən qavrayırlar. Muzey ekskursiyaları tarixə marağı artırır, tənqidi və analitik düşüncə bacarıqlarını inkişaf etdirir. Bu məkanlarda təşkil olunan seminarlar, müzakirələr, sərgilər və layihələr gənclərin fəal vətəndaş kimi formalaşmasına, ictimai işlərdə fəaliyyət göstərmək ruhunun yüksəlməsinə xidmət edir.

Eyni zamanda, muzeylər ölkənin turizm potensialının vacib komponentlərindən biridir. Xarici turistlər üçün muzeylər həmin ölkənin mədəniyyətinə və tarixinə açılan bir pəncərədir [3, 105-142]. Beləliklə, onlar həm də

ölkənin beynəlxalq imicinin formalaşmasında və iqtisadi inkişafında dolayı yolla iştirak edir. Bu səbəbdən də dövlətlər muzeylərdə təqdim edilən eksponantlar vasitəsilə beynəlxalq arenada öz qələbələrini, uğurlarını nümayiş etdirməyə çalışırlar. Bu baxımdan muzeylər dövlətlərin siyasətini əks etdirir.

Muzeylərin ilk yaranma səbəblərini təhlil etdikdə onların insanın keçmişə, yaradıcılığa - incəsənətə marağı ilə bağlı olduğunu görürük. "Muzey" termini qədim yunan dilindəki "mouseion" sözündən yaranmışdır və bu söz ilham pərilərinə (muzalara) həsr olunmuş məbəd mənasını daşıyırdı. Muzalar qədim yunan mifologiyasında incəsənət və elmin ilahələri hesab olunurdu. İlk muzeylər eradan əvvəl XVI əsrdə Kritdə, XIII–XII əsrlərdə Çində, III əsrdə isə Qədim Roma və Yunanıstanda yaradılmışdır. Bu ilk muzeylərdə yüksək estetik və tarixi dəyərə malik sənət əsərləri, məişət əşyaları və sənədlər qorunub saxlanılırdı. Bu gün dünyada müxtəlif mövzularda minlərlə muzey fəaliyyət göstərir: dövlət muzeyləri, incəsənət muzeyləri, memorial və tarixi muzeylər, səyyar və qoruq tipli muzeylər, musiqi və ədəbiyyat muzeyləri və s. Onların hər biri xalqın maddi və mənəvi irsinin qorunması və təşviqində misilsiz rol oynayır. 1977-ci ildə Beynəlxalq Muzeylər Şurasının (ICOM) 11-ci konfransında qəbul edilən qərara əsasən, hər il 18 may tarixi "Beynəlxalq Muzeylər Günü" kimi qeyd olunur. Bu tarix ictimaiyyətin diqqətini mədəniyyət ocaqlarına yönəltmək və muzeylərin əhəmiyyətini bir daha vurğulamaq məqsədi daşıyır.

İctimai şüurun formalaşmasında hərbi muzeylərin funksiyaları. Tarixi və hərbi muzeylər tarixin, sənətin, elmin və mədəniyyətin müxtəlif istiqamətlərini yaşadan məkanlar olmaqla yanaşı, keçmişlə bu gün arasında körpü rolunu oynayır, insanlara kim olduqlarını, haradan gəldiklərini və hara getdiklərini anlama imkanı verir. Çünki burada nümayiş etdirilən əşyalar, sənədlər, silahlar və geyimlər sadəcə obyekt deyil, keçmişin canlı izləridir.

İlk hərbi muzeylərin yaranması XVII əsrdə Avropada - Avstriyada və Fransada müşahidə olunmuşdur. Bu muzeylərin əsas məqsədi hərbi qələbələri, onların əldə olunma planlarını, istifadə edilən silah və avadanlıqları, ümumilikdə isə döyüş tarixini əks etdirən müxtəlif hərbi əşyaları toplamaq və qorumaq olmuşdur. Vaxt keçdikcə digər ölkələrdə də bu ənənə davam etdirilmiş, hərbi eksponatların sərgiləndiyi ekspozisiyalar və ya xüsusi muzeylər yaradılmışdır. Lakin II Dünya müharibəsindən (1939-1945) sonra bu proses daha geniş vüsət almış və bir çox ölkələrdə dövlət səviyyəsində hərbi muzeylərin yaradılmasına başlanmışdır. Bu, təsadüfi deyil: çünki II Dünya müharibəsi həm coğrafi əhatə dairəsinə, həm də insan itkisinə görə bəşər tarixində ən böyük müharibələrdən biri olmuşdur.

Hazırda dünyanın müxtəlif ölkələrində fəaliyyət göstərən qələbə və hərb tarixi muzeyləri yalnız keçmiş döyüşləri deyil, həm də bu döyüşlərdə göstərilən qəhrəmanlıq və fədakarlığı əks etdirir, tarixi yaddaşın qorunması-

na və gələcək nəsillərə ötürülməsinə xidmət edir [11, 51-65]. Bu cür muzeylər ictimaiyyətin tarixə obyektiv yanaşmasına imkanı verir, vətənpərvərlik tərbiyəsində və kollektiv kimliyin formalaşmasında mühüm rol oynayır.

Müxtəlif ölkələr üzrə hərbi muzeylərin yaranma tarixi və bəzi xüsusiyyətlərini müqayisə edərkən nəzərə almaq lazımdır ki, bu tipli muzeylər adətən müharibələrdə iştirak edən dövlətlərin və ya döyüşlərin baş verdiyi ərazilərdə açılmışdır. Xalqlar bununla da müharibə zamanı yaşadıqları tarixi qoruyub nümayiş etdirməyə və gələcəyə ötürməyə çalışmışlar. Məsələn, dünyanın ən geniş ərazilərə sahib olan imperiyası Böyük Britaniyada İmperial Müharibə Muzeyi (Imperial War Museum, London, Böyük Britaniya) vardır [1]. 1917-ci ildə qurulan muzey, Böyük Britaniyanın və Birlik ölkələrinin iştirak etdiyi müharibələri əhatə edir. Belə ki, muzeydə I və II Dünya müharibələri, Koreya və Malaya müharibələri, müstəmləkə dövrü münaqişələri və Britaniyanın hərbi zəfərləri ilə bağlı eksponatlar, sənədlər və şəxsi əşyalar sərgilənir. Bu səbəbdən də muzey zəngin kolleksiyalara sahibdir. Muzeyin bir hissəsi İkinci Dünya Müharibəsi Qalereyaları adlanır. Bu qalereyalar, 1.500-dən çox eksponatla müharibənin qlobal təsirini və insanların taleyini əks etdirir.

Ən zəngin eksponatları olan muzeylərdən digəri Fransada Müharibə və Zəfər muzeyidir (Musée de l'Armée, Paris). Burada Napoleon dövründən başlayaraq II Dünya müharibəsi daxil olmaqla geniş bir dövrü əhatə edən hərb tarixi izləmək olur. Muzeydə həm Fransa ordusunun zəfərləri, həm də müxtəlif döyüş qənimətləri nümayiş olunur [17].

Bolqarıstanda yerləşən Milli Hərb Tarixi Muzeyinə (Националният военноисторически музей, Sofiya, Bolqarıstan) daxil olan eksponatlar əhatə etdiyi dövrə və zənginliklərinə görə fərqlənir (şəkil 1). Hətta Varna və Krumovada filialları vardır. 1916-cı ildə yaradılan muzeydə bolqar milli kimliyini və mübarizələrini ifadə edən hərbi texnika və silahlar, geyimlər, bayraqlar, sənədlər və digər əşyalar nümayiş etdirilir [27, 32].

Bəzi abidələr bir dövlətin ərazisində yerləşsə də, müxtəlif xalqların tarixini qoruyur. Məsələn, Türkiyənin Çanaqqala Şəhidləri abidəsi və müharibə muzeyi I Dünya müharibəsi zamanı baş vermiş Çanaqqala döyüşlərinə və Osmanlı ordusunun zəfərinə həsr olunmuşdur. Burada osmanlı əsgərləri ilə yanaşı müttəfiq orduların – yəni işğal üçün gələn ordunun əsgərləri də dəfn olunmuşdur. Şəhidlər xiyabanının yanında yerləşən muzeydə hərbi qənimətlər, döyüş sursatları və əsgər əşyaları sərgilənir. Abidə və muzey dünya mədəniyyəti üçün əhəmiyyətli hesab edildiyinə görə 2014-cü ildə UNESCO-nun Ümumdünya mədəni irs siyahısına daxil edilmişdir [8].

Türkiyədə bu kompleksdən əlavə 1966-cı ildə 50 mindən artıq eksponatı olan və XV-XX əsrləri əhatə edən Hərbi Muzey və Mədəniyyət Kompleksi Komandanlığı (Askerî Müze ve Kültür Sitesi Komutanlığı, İstanbul,

Türkiyə) yaradılmışdır [4]. Bu muzeydə şəhidlərə aid ayrıca salonun olmasını milli kimlik və vətənvərlik hisslərinin formalaşması ilə əlaqədar xüsusi vurğulamaq lazımdır. Əlavə edək ki, Türkiyə Cümhuriyyətində də xalqın hərb tarixinə aid materialların qorunmasına xüsusi diqqətlə yanaşılır. Bu xüsusiyyət vətənpərvərlik hisslərinin formalaşması, dövlətin qüdrəti, xalqın qazandığı qələbələri əks etdirmək baxımından mühüm mərkəzlərdir.

70-dən çox hərb tarixi muzeyi fəaliyyət göstərən Almaniyada yerləşən Millətlər Döyüşü Abidəsi (Monument to the Battle of the Nations, Leypsiq, Almaniya) də xalqların işğala qarşı birgə mübarizəsini əks etdirmək baxımından əhəmiyyətlidir. Monumental abidə Leypsiq döyüşünün (1813) 100 illiyi münasibətilə 1913-cü ildə açılmışdır [16]. Abidə Avropa xalqlarının Napoleonla mübarizəsini və qalibiyyətini əbədiləşdirir. Abidənin içərisində 324 atlı heykəl və 68 metr hündürlüyündə günbəz yerləşir. Ziyarətçilər 364 pillə qalxaraq müşahidə platformasına çıxa bilirlər.

Yuxarıda qeyd etdiyimiz kimi hərbi muzeylər əsasən II Dünya müharibəsindən sonra qurulmuşdur. Hazırda bu muzeylərə daha çox Şərqi Avropa ölkələri və keçmiş SSRİ ərazidində rast gəlinir.

Böyük Vətən Müharibəsi Muzeyi (Museum of the Great Patriotic War, Moskva, Rusiya) Moskvanın Poklonnaya təpəsində yerləşir, 1995-ci ildə II Dünya müharibəsinin başa çatmasının 50 illiyi münasibətilə açılmışdır. Muzeydə 14 min $m^2$ daimi və 5.500 $m^2$ müvəqqəti sərgi sahəsi mövcuddur. Ziyarətçilər burada müharibə dövrünə aid sənədlər, silahlar və digər eksponatlarla tanış ola bilirlər. Muzeydə 75 mindən çox eksponat nümayiş olunur və illik 700 min – 800 min ziyarətçi qəbul edir. Burada Şərq Cəbhəsindəki döyüşlər, Sovet İttifaqının qələbəsi və müharibənin təsirləri ətraflı şəkildə nümayiş etdirilir. Bu materiallar SSRİ-nin faşist Almaniyası üzərindəki zəfərini əks etdirir. Muzeydə həm Sovet Ordusunun, həm də müttəfiqlərin qələbələrinə, hərbi texnikaya və qənimətlərə dair çoxsaylı eksponatlar, həmçinin sənədlər yer alır. Muzeydə hadisələri canlandırmaq üçün dioramalar qurulmuşdur [30]. Bu muzeydən əlavə Rusiyanın bir sıra şəhərlərində hərbi muzeylər və müharibələrə aid memorial komplekslər vardır.

II Dünya müharibəsi zamanı daha uzunmüddətli döyüşlərin baş verdiyi Ukraynada fəaliyyət göstərən II Dünya Müharibəsi Tarixi üzrə Milli Muzeyi (Національний музей-заповідник «Битва за Київ у 1943 році», National Museum-Preserve of Ukrainian military achievements, Kiyev, Ukrayna) 1981-ci ildə açılmışdır. 300 mindən çox eksponata malikdir və 62 metr hündürlüyündə "Ana Vətən" heykəli ilə tanınır [19]. Əlavə edək ki, Ukraynada II Dünya müharibəsinə aid 20-dən artıq muzey vardır. Bu muzeylər Ukraynanın müharibədəki rolunu və xalqın çəkdiyi əziyyətləri əks etdirir, həmçinin həmin tarixi olduğu kimi təsəvvür etməyə kömək edir.

II Dünya müharibəsi ilə əlaqədar yaradılan maraqlı muzeylərdən daha

ikisini qeyd etmək vacibdir. Onlardan biri Almaniya-Rusiya Muzeyi (Berlin-Karlshorst, Almaniya) 8 may 1945-ci ildə Almaniyanın təslim olduğu binada yerləşir. Muzeydə təslim otağı və Almaniya-SSRİ müharibəsi ilə bağlı eksponatlar nümayiş etdirilir. Digəri isə Təslim Muzeyidir (Reims, Fransa). Muzey 7 may 1945-ci ildə Almaniyanın müttəfiqlərə təslim olduğu binada yerləşir. Muzeydə təslim sənədləri və o dövrə aid eksponatlar nümayiş etdirilir.

Yeri gəlmişkən, Fransada II Dünya müharibəsinə aid muzeylərdən biri Yuta Biç Desant Çıxartma Muzeyidir (Musee du Debarquement Utah Beach, Normandiya, Fransa). Muzey 6 iyun 1944-cü ildə ABŞ qoşunlarının Fransaya çıxarılmasını əbədiləşdirir [28]. Muzeydə B-26 bombardmançı təyyarəsi və D-Day əməliyyatına (müttəfiq qüvvələrinin Fransa sahillərinə qoşun çıxartması əməliyyatı) dair eksponatlar sərgilənir. II Dünya müharibəsində Uzaq Şərq cəbhəsində olan döyüşlərə aid həmin dövlətlərin ərazilərində muzeylər yaradılmışdır. Məsələn, 1984-cü ildə açılan Xalxqol Qələbə Muzeyi (Khalkhgol Victory Museum, Dornod, Monqolustan) 1939-cu ildə baş vermiş Xalxqol Gol döyüşündə Monqolustan və Sovet İttifaqının Yaponiyaya qarşı əldə etdiyi qələbəni əbədiləşdirir. Muzeydə 1000-dən çox eksponat, o cümlədən silahlar, hərbi geyimlər və dövrün sənədləri sərgilənir.

Ərazisində dünya müharibələri baş verməyən ABŞ-də də çoxsaylı hərbi muzeylər vardır. Onlardan biri 2000-ci ildə açılan Milli İkinci Dünya Müharibəsi Muzeyi (The National WWII Museum, Nyu Orlean, ABŞ) ABŞ-ın II Dünya müharibəsindəki rolunu və müttəfiqlərin qələbəsini əks etdirən nüfuzlu muzey hesab edilir. Muzeydə texnika, əsgər əşyaları və əsasən, alman və yapon qənimətləri nümayiş olunur. Muzeydə D-Day əməliyyatı, Avropa və Sakit Okean cəbhələri, azadlıq kampaniyaları ilə bağlı sərgilər mövcuddur. Həmçinin, Supermarine Spitfire və Duqlas (Douglas) C-47 Skytrain təyyarələri də sərgilənir [25].

Dünyanın müxtəlif regionlarında baş vermiş hərbi əməliyyatlara da aid muzeylər diqqəti cəlb edir. Vyetnamda Müharibə Qənimətləri Muzeyi (War Remnants Museum, Ho Chi Minh, Vyetnam) bütünlükdə Vyetnam müharibəsinə aid materialları əhatə edir. B-52 Qələbə Muzeyi (B-52 Victory Museum, Hanoy, Vyetnam) isə Vyetnamın hava müdafiə uğurlarını nümayiş etdirir və ABŞ-a qarşı qələbə ilə əlaqədar yaradılmışdır. 1972-ci ildə ABŞ-ın B 52 bombardmançılarına qarşı müdafiə əməliyyatları, düşmüş təyyarə qalıqları və hava müdafiəsi texnikası, müxtəlif silahlar, təyyarələr və sənədlər nümayiş etdirilir.

Çin Xalqının Yapon Aqressiyasına Qarşı Müharibəsi Muzeyi (Military Museum of the Chinese People's Revolution, Pekin, Çin) Çin Xalq Respublikasının qurulmasına aparan döyüşlərə və Çin hərb tarixinə həsr olunmuşdur [15, 23]. Burada 180 mindən artıq eksponat, qənimət alınmış silah-

lar və texnika nümayiş olunur. Muzeydə multimedia sərgiləri və interaktiv eksponatlar vasitəsilə müharibənin təsirləri və Çin xalqının mübarizəsi təqdim olunur.

İran İslam Respublikasında hərbi qənimətlər muzeyi vardır. Müqəddəs Müdafiə Muzeyi (Tehran, İran) adlı bu muzeydə İran-İraq müharibəsi (1980-1988) zamanı qənimət götürülmüş silahlar sərgilənir [26].

Bu mövzuda diqqəti cəlb edən daha bir maraqlı fakt Koreya müharibəsinə (1950-1953) aid hərbi muzeylərdir. Belə ki, Şimali Koreya və Cənubi Kokeyada mövcud olan siyasi sistemlər bu müharibəyə ideoloji olaraq fərqli baxışlar müəyyənləşdirmişlər və nəticədə fərqli yaddaş formalaşmışdır. Naktonqan Çayı Qələbə Memorialı (Tequ, Cənubi Koreya) 1979-cu ildə Apsan Parkında açılmışdır. Muzey, Koreya müharibəsi (1950-1953) zamanı Naktonqan çayı ətrafında baş vermiş döyüşlərdə həlak olan əsgər və mülki şəxslərin xatirəsinə həsr olunmuşdur. İkimərtəbəli muzeydə Koreya müharibəsi və digər mühüm tarixi hadisələrə dair eksponatlar yer alır. Muzeyin ətrafında isə müharibə dövrünə aid tanklar və təyyarələr nümayiş etdirilir (The Nakdong River Victory Memorial Hall, n.d.). Seulda isə Koreya Müharibəsi Memorial Muzeyi (The War Memorial of Korea (WMK), Seul, Cənubi Koreya) fəaliyyət göstərir [12, 38-67; 24]. Bu muzeylər etnik milliyyətçilik və milli kimliyin formalaşması, şəhidlərə hörmət, vətəpərvərlik hisslərinin aşılanması baxımından əhəmiyyətli hesab edilir. 1953-cü ildə qurulan və 2014-cü ildə yenidən təmir olunan Qələbəli Vətən Azadlıq Müharibəsi Muzeyi (Pxenyan, Şimali Koreya) Şimali Koreyanın qələbələrini nümayiş etdirir. Muzeydə 360 dərəcəlik diorama, Sovet T-34/85 tankları, ABŞ və Birləşmiş Krallığa məxsus hərbi texnika və USS Pueblo gəmisinin sərgiləri mövcuddur.

Göründüyü kimi, müxtəlif hərbi əməliyyatlarda əldə edilən qələbə və qənimətlərin muzeylərdə nümayiş etdirilməsinə aid çoxsaylı nümunələr vardır. Bu muzeylərdə saxlanılan eksponatların tərkibinin müqayisəsi onların eyni məzmunlu olmasını göstərir. Bunların əsas hissəsini döyüşlər bitdikdən sonra həmin ərazilərdə qalan əşyalar və ya zəfər zamanı ələ keçirilən hərbi qənimətlər, əsgərlərin xatirə əşyaları, silahlar, geyimlər, xəritələr, müxtəlif sənədlər və s. təşkil edir.

Əlavə etmək lazımdır ki, hərbi münaqişələr zamanı qanuni hərbi qənimət praktikası və bunun beynəlxalq humanitar hüquq çərçivəsində necə tənzimləndiyi mövzusu da aktual məsələdir. Çünki tarix boyu əsgərlər döyüşdən yadigar əşyalar götürüblər, lakin müharibə şəraitində baş verən bu faktlar qanunsuz talan və ya müharibə cinayəti hesab edilməmişdir [11, 51-65]. Bununla belə, bir sıra dövlətlərdə bu barədə Dxili qanunvericilik mövcuddur. ABŞ-də bu mövzuya fərqli yanaşılır və hətta evlərdə hansı əşyaların saxlana biləcəyi barədə qanunvericilik mövcuddur.

Azərbaycanda hərbi muzey təcrübəsi: mübarizə ruhu və kollektiv yad-

daş. Hərb tarixi və döyüş sənəti sahəsində zəngin və qədim ənənələrə malik olan Azərbaycan xalqı əsrlər boyu müxtəlif müharibələrdə və silahlı münaqişələrdə iştirak etmiş, bu proseslərdə formalaşmış mübarizə təcrübəsi və hərbi mədəniyyət nümunələri bugünkü nəsillərə miras qalmışdır. Döyüşlərdə istifadə olunmuş silahlar, hərbi geyimlər, bayraqlar, orden və medallar, eləcə də müxtəlif döyüş ləvazimatlarının bir hissəsi günümüzə qədər qorunmuşdur. Xalqımızın şərəfli mübarizə yolunu əks etdirən materiallar həm də mədəniyyət nümunələri kimi xüsusi əhəmiyyət daşıyır.

Bu eksponatlar Azərbaycanın müxtəlif regionlarında yaradılmış hərbi muzeylərdə və memorial komplekslərdə qorunub saxlanılır və ictimaiyyətə təqdim olunur. Hərbi muzeylərdə nümayiş etdirilən eksponatlar Azərbaycan xalqının qəhrəmanlıq salnaməsini əyani şəkildə canlandırmaqla yanaşı, həm də azərbaycanlıların milli dəyərlərinin və vətənpərvərlik hisslərinin formalaşdığı, tarixi faktların sistemləşdirilərək gələcək nəsillərə çatdırıldığı elm və təbliğat ocaqlarıdır, gənc nəslin vətənpərvərlik ruhunda tərbiyəsində də mühüm rol oynayır. Bu baxımdan, hərbi muzeylər yalnız keçmişin yadigarı deyil, həm də milli kimliyin və tarixi yaddaşın qorunması baxımından strateji əhəmiyyət daşıyan mədəni institutlardır.

Azərbaycanda digər dövlətlərdə olduğu kimi hərb tarixinə aid xüsusi muzey vardır. Müstəqillik dövründə – 1992-ci ildə yaradılan Hərb Tarixi Muzeyində qədim dövrdən başlayaraq müasir dövrə aid hərbi silahlar, texnikalar, geyimlər, döyüş ləvazimatları, sənədlər nümayiş etdirilir [5, 6]. Muzeydə Milli Qəhrəmanlara aid stendlərin yaradılması vətənpərvərlik hisslərinin təbliği və milli kimliyin formalaşması baxımından əhəmiyyətlidir.

Azərbaycanın ilk muzeylərindən biri olan Milli Azərbaycan Tarixi Muzeyində müxtəlif tarixi dövrlərə aid silahlar və döyüş əşyaları vardır. Həmçinin muzeydə soyqırımlar, deportasiyalar, I Dünya müharibəsi, II Dünya müharibəsi, 20 Yanvar faciəsi və Qarabağ müharibələrinə aid eksponatlar da yer alır. Bu eksponatlar Azərbaycan xalqının hərb tarixini və döyüş mədəniyyətini əks etdirir [22]. Məlumdur ki, 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti erməni faşizminə qarşı Qafqaz İslam Ordusu ilə birlikdə mübarizə aparmışdır. Hərb və dövlətçilik tariximizin bu dövrünü, həmçinin Azərbaycan-Türkiyə qardaşlığını sübut edən materiallar da muzeydə yer alır. Bunlara Qafqaz İslam Ordusuna aid eksponatlar - Osmanlı bayrağının ucluğu, təltif nişanları, silah və silah hissələri, türk əsgərinin üzərində olan dua aiddir [20, 337-338, 498]. Vətən müharibəsində Azərbaycan torpaqlarının işğaldan azad edilməsindən sonra zəfərə, şəhidlərə, müharibənin gedişinə aid bir sıra mühüm əşyalar muzeyə təhvil verilmişdir.

Azərbaycan Milli İncəsənət Muzeyində də müxtəlif dövrlərə aid eksponatlar arasında hərbi geyimlər və silahlar yer alır. Muzeydə saxlanılan hərbi eksponatlar, müharibələrdə istifadə edilmiş əşyalar sənət əsərləri kimi

təqdim edilir. Bu da hərb tarixi ilə yanaşı bu sahədə sənətkarların formalaşdığını da göstərir.

İlk muzeyimiz olan Azərbaycan İstiqlal Muzeyində Azərbaycanın müstəqillik tarixi, o cümlədən hərbi mübarizə və şəhidlərə dair eksponatlar mövcuddur. Azərbaycan xalqının müstəqillik uğrunda mübarizəsi, 1918-1920-ci illərdəki Azərbaycan Xalq Cümhuriyyəti, sovet dövrü və 1990-cı illərin hadisələrinə dair ekspozisiyalar var. Burada nümayiş etdirilən eksponatlar vətənpərvərlik hisslərinin təbliğində mühüm əhəmiyyət kəsb edir.

2021-ci ilin aprel ayında açılmış Hərbi Qənimətlər Parkı (Bakı) həm regionda, həm də Azərbaycanda bu tipdə ilk və yeganə məkandır. Rəsmi olaraq muzey adlanmasa da, park açıq səma altında bir muzey ab-havası yaradır (şəkil 2). Burada Vətən müharibəsi zamanı və ondan sonra Ermənistan ordusundan ələ keçirilmiş, işğaldan azad edilmiş ərazilərdə olan texnika və avadanlıqlar, Ermənistan Silahlı Qüvvələrinə aid qənimət götürülmüş texnikalar, silahlar, bayraqlar və digər hərbi atributlar nümayiş etdirilir. Park Azərbaycan xalqı üçün Zəfər simvolikası və müharibənin real izlərini əks etdirən sahədir [21]. Park həm hərbi, həm də ideoloji-tərbiyəvi məqamları əks etdirir. Azərbaycanda Qarabağ zəfərindən sonra yaradılan Hərbi Qənimətlər Parkına dünya mediasında fərqli yanaşmalar, xüsusilə tənqidi fikirlər diqqəti cəlb etdi [9, 10]. Halbuki bu yanaşma tamamilə yersizdir, çünki müxtəlif ölkələrdə bu tipli muzeylər mövcuddur.

2024-cü il noyabrın 8-də Hərbi Qənimətlər parkının yaxınlığında Zəfər Parkı və Muzeyi (Bakı) açılmışdır [13]. Kompleksə Zəfər tağı (44 metr hündürlükdə), Zəfər Parkı və Zəfər Muzeyi daxildir. Muzeydə Vətən Müharibəsinin gedişi, qəhrəmanlıq nümunələri və əldə olunan qələbə əks etdirilir [7].

Qarabağ müharibəsindəki zəfərlə əlaqədar Bakı, Şuşa, Laçın və Ağdamda zəfər muzeyləri hazırlanır [14, 29]. Muzeylərdə həm işğal dövrünün faciələri, həm də Vətən müharibəsindəki zəfəri əks etdirən materialların toplanması nəzərdə tutulmuşdur. Şuşada yaradılacaq Muzey, Şuşanın azad olunması və Qarabağ Zəfərinin əhəmiyyətini vurğulamaq məqsədi daşıyır. Ağdam şəhərində inşa ediləcək İşğal və Zəfər muzeyi kompleksində isə həm işğal dövrünün faciələri, həm də Vətən Müharibəsindəki zəfərin əks olunması nəzərdə tutulmuşdur. Muzeydə hər bir kəndin və şəhərin necə azad edildiyi faktlarla, şəkillərlə və videolarla təqdim olunacaq [2].

Məlumdur ki, respublikanın, demək olar ki, bütün tarix diyarşünaslıq muzeylərində müharibələrlə əlaqədar guşə və eksponatlar vardır. Biz həm II Dünya müharibəsi, həm də Qarabağ müharibəsi iştirakçılarına aid materialların – əsasən iştirakçıların şəkilləri, sənədlər, təltiflər və digər əşyaların burada nümayiş olunduğunu görə bilirik.

Azərbaycanlılar arasında şəhidlərə ehtiram xüsusi əhəmiyyət kəsb etdiyi bu yanaşmanın milli kimlik, torpağına və dəyərlərə sahib çıxmaq anla-

yışları ilə əlaqəli olduğu üçün şəhidlərin dəfn edildiyi məkanlar Şəhidlər xiyabanı adı ilə əbədiləşdirilmiş və memorial komplekslər yaradılmışdır. Bu məkanlar gənclər arasında vətənpərvərliyin təbliğində mühüm əhəmiyyət kəsb edir.

**Yekun.** Aparılan tədqiqatlar göstərir ki, müasir hərbi muzeylər yalnız tarixi yaddaşın qorunması ilə məhdudlaşmır, həm də milli kimliyin möhkəmləndirilməsi, vətənpərvərlik dəyərlərinin təşviqi və ictimai ideoloji həmrəyliyin formalaşmasında funksional rol oynayır. Xüsusilə müharibə təcrübəsi yaşamış xalqlar üçün bu muzeylər azadlıq mübarizəsinin simvolu olaraq, döyüş irsinin gələcək nəsillərə ötürülməsi baxımından strateji əhəmiyyət kəsb edir. Beynəlxalq təcrübə də təsdiqləyir ki, hərbi muzeylər təkcə müharibələrin nəticələrini deyil, həm də kollektiv yaddaş və milli ideoloji dəyərlərin formalaşdırılmasını əks etdirən mühüm institutlar kimi fəaliyyət göstərir.

Azərbaycan nümunəsində bu tendensiya Qarabağ müharibələrindən sonra daha da güclənmişdir. Hərbi qənimətlər parkı və memorial komplekslər vasitəsilə tarixi sənədləşdirmə ilə yanaşı, gələcək nəsillər üçün ideoloji mesajların ötürülməsinə xüsusi diqqət yetirilmişdir. Bununla yanaşı, erməni silahlı dəstələrinin müxtəlif dövrlərdə həyata keçirdiyi etnik təmizləmə və soyqırımı siyasətini sübut edən faktların qorunması həm regional yaddaşın saxlanılması, həm də oxşar hadisələrin qarşısının alınması baxımından aktuallıq kəsb edir.

Tədqiqatın nəticələri ümumiləşdirilərək belə qənaətə gəlmək mümkündür ki, hərbi muzeylər üç əsas istiqamətdə fəaliyyət göstərir:

1) şəhidlik və kollektiv yaddaşın qorunması,

2) milli birliyin ideoloji möhkəmləndirilməsi,

3) mədəni diplomatiya vasitəsilə beynəlxalq auditoriyaya təsir göstərilməsi. Bu baxımdan, Azərbaycan təcrübəsi də qlobal muzeyçilik praktikasının bir hissəsi kimi dəyərləndirilə bilər.

Gələcəkdə isə bu tipli muzeylərin fəaliyyətinin interaktiv sərgilər, gənclər üçün təhsil proqramları, virtual eksponatlar və beynəlxalq əməkdaşlıq layihələri ilə zənginləşdirilməsi məqsədəuyğun hesab olunur. Muzeylərdə nümayiş etdirilən hərbi qənimətlərin, sənədlərin və digər eksponatların qorunması üçün rəqəmsal arxivləşdirmə və virtual mühitdə təqdimat üsullarının tətbiqi vacibdir.

Beləliklə, hərbi muzeylərin həm milli yaddaşın qorunması, həm də beynəlxalq səviyyədə mədəni diplomatiyanın aparıcı vasitələrindən biri olduğu müəyyənləşdirilmişdir.



Şəkil 1. Milli Hərb Tarixi Muzeyi (Sofiya, Bolqarıstan)

*Mənbə: National Museum of Military History. (n.d.).* Vŭnshnaekspozitsiya. *https://militarymuseum.bg/ekspozitsii/vanshna-ekspozitsiya/*



Şəkil 2. Hərbi Qənimətlər Parkı (Bakı, Azərbaycan)

*Mənbə: Qafqazinfoagentliyi. https://qafqazinfo.az/uploads/1618242936/park.jpg*

**ƏDƏBİYYAT**

1. About the Imperial War Museum (IWM). https://www.gov.uk/government/ organisations/imperial-war-museum/about. Müraciət tarixi: 18 may 2025.
2. Ağdamda İşğal, Zəfər muzeyi kompleksi, İçərişəhər tipli tarixi-mədəni hissə yaradılacaq. Demokrat.az. 2021, 9 dekabr. https://demokrat.az/az/news/96783/agdamda-isgal-zefer-muzeyi-kompleksi-iceriseher-tipli-tarixi-medeni-hisse-yaradilacaq. Müraciət tarixi: 25 mart 2025.
3. AkbulutOnur, EkinYakın. SavaşAlanlarıTurizmi: BirleşikKrallık (İngiltere) Savaş Alanları Kaynak Merkezi (UK Battlefield Resource Center) Örneğive Kurtuluş Savaşı

Savaş Alanları Turizm Potansiyeli. S. 105–142 // Türkiye Sosyal Araştırmalar Dergisi, 22 (1), 2018. https://dergipark.org.tr/tr/download/article-file/453719
4. Askerî Müze ve Kültür Sitesi Komutanlığı. https://askerimuze.msb.gov.tr/index.html. Müraciət tarixi: 5 aprel 2025.
5. Azərbaycan Hərb Tarixi Muzeyi haqqında məlumat. Azərbaycan Hərb Tarixi Muzeyi. 2023, 27 iyun. https://fact-info.az/18700-azerbaycan-herb-tarixi-muzeyi.html. Müraciət tarixi: 3 mart 2025.
6. Azərbaycan Hərb Tarixi Muzeyi. [Video]. You Tube. https://www.youtube.com/watch?v=zrBBic-y8Tg. Müraciət tarixi: 25 mart 2025.
7. Bağırlı M. Tarixi qələbəmizin əbədiləşən təcəssümü: Hərbi Qənimətlər Parkı. Respublika, 2025, 12 aprel, 71, s.1, 5.
8. Çanakkale (Dardanelles) and Gelibolu (Gallipoli) Battles Zones in the First World War. UNESCO. https://whc.unesco.org/en/tentativelists/5911/. Müraciət tarixi: 20 may 2025.
9. Fury in Armenia as Azerbaijan displays war trophies. Aljazeera. 2021, April 13 / https://www.aljazeera.com/news/2021/4/13/fury-in-armenia-as-azerbaijan-displays-war-trophies. Müraciət tarixi: 3 mart 2025.
10. Fury in Armenia as Baku displays war trophies. France24. 2021, April 13. https://www.france24.com/en/live-news/20210413-fury-in-armenia-as-baku-displays-war-trophies. Müraciət tarixi: 25 aprel 2025.
11. Govern K. H. Licit war trophies as a means of preserving art and culture in times of war. Ave Maria Law Review, 2022, 20(1), s.51–65. https://www.avemarialaw.edu/wp-content/uploads/2022/09/Govern-Proof.pdf. Müraciət tarixi: 6 may 2025.
12. Hong K. Commemoration and the construction of nationalism: War memorial museums in Korea and Japan. Asia-Pacific Journal, 2012, 10(S1), 38–67. https://doi.org/10.1017/S1557466012024485. Müraciət tarixi: 6 may 2025.
13. İlham Əliyev Bakıda Zəfər parkının açılışında iştirak edib. Azərbaycan Respublikası Prezidentinin rəsmi internet saytı. 2024, 8 noyabr. https://president.az/az/articles/view/67241. Müraciət tarixi: 16 iyun 2025.
14. Laçında İşğal və Zəfər Muzeyi Kompleksinin təməli qoyulub. Report.az. 2023, 28 may. https://report.az/daxili-siyaset/lacinda-isgal-ve-zefer-muzeyi-kompleksinin-temeli-qoyulub/. Müraciət tarixi: 2 mart 2025.
15. Military Museum of the Chinese People's Revolution. http://eng.jb.mil.cn/. Müraciət tarixi: 3 may 2025.
16. Monument to the Battle of the Nations. https://www.stiftung-voelkerschlachtdenkmal-leipzig.de/en/home-english/. Müraciət tarixi: 2 iyun 2025.
17. Musée de l'Armée, Paris. https://www.musee-armee.fr/accueil.html. Müraciət tarixi: 18 aprel 2025.
18. National Museum of Military History. Vŭnshna ekspozitsiya. https://militarymuseum.bg/ekspozitsii/vanshna-ekspozitsiya/. Müraciət tarixi: 21 iyun 2025.
19. National Museum of the History of Ukraine in the Second World War. https://warmuseum.kyiv.ua/en. Müraciət tarixi: 7 aprel 2025.
20. Rıhtım M., Süleymanov M. Azərbaycan Xalq Cümhuriyyəti və Qafqaz İslam Ordusu. Bakı: Nurlar, 2008
21. Salmanlı R..Xalqımızın qürur ünvanı – Hərbi qənimətlər parkı. Azərbaycan. 2022, aprel 23. https://www.azerbaijan-news.az/az/posts/detail/xalqimizin-qurur-unvani-herbi-qenimetler-parki-1650748180. Müraciət tarixi: 9 mart 2025.
22. “Silahın mistik gözəlliyi (XVI–XIX əsrlər Azərbaycan silahı)” sərgisi. Azərbaycan Tarixi Muzeyi. 2022, 28 iyun. http://azhistorymuseum.gov.az/az/exp/30. Müraciət tar-

ixi: 5 mart 2025.
23. The Museum of the War of the Chinese People's Resistance Against Japanese Aggression. https://www.1937china.com/kzslw/foreign/views/home/indexrus.html. Müraciət tarixi: 4 aprel 2025.
24. The Nakdong River Victory Memorial Hall. Evendo. https://evendo.com/locations/south-korea/gwandong-region/attraction/nakdong-river-victory-memorial-hall. Müraciət tarixi: 18 mart 2025.
25. The National WWII Museum. https://www.nationalww2museum.org/. Müraciət tarixi: 4 aprel 2025.
26. The Tehran Peace Museum. https://www.tehranpeacemuseum.org/index.php/fa/. Müraciət tarixi: 10 mart 2025.
27. Ulusal Askeri Tarih Müzesi 6 Mayıs Bayramı'nısanal ortamda kutlayacak. https://bnr.bg/tr/post/101270520/ulusal-askeri-tarih-muzesi-6-mayis-bayramini-sanal-dunyada-kutlayacak. Müraciət tarixi: 2 aprel 2025.
28. Utah Beach Museum. https://utah-beach.com/en/. Müraciət tarixi: 16 aprel 2025.
29. Vətən Müharibəsinin "Zəfərmuzeyi". APA TV. https://apa.az/apa-tv/xeber/xeberler/veten-muharibesinin-zefer-muzeyi-reportaj-62564. Müraciət tarixi: 3 mart 2025.
30. Victory Museum. https://victorymuseum.ru/. Müraciət tarixi: 5 may 2025.
31. Военные музеи мира. http://museumvk.ru/voennjye-muzei-mira. Müraciət tarixi: 25 mart 2025.
32. Националния военно исторически музей. За нас. https://militarymuseum.bg/za-nas/. Müraciət tarixi: 17 iyun 2025.
33. Самые необычные музеи военной истории в мире. BBC. 2018, January 24. https://www.bbc.com/ukrainian/vert-cul-russian-42794536. Müraciəttarixi: 15 aprel 2025.

## ВОЕННЫЕ МУЗЕИ В ФОРМИРОВАНИИ ИСТОРИЧЕСКОЙ ПАМЯТИ: АЗЕРБАЙДЖАН И МИРОВЫЕ ПРИМЕРЫ

**Саида З.ГУЛИЕВА, Гюнель И. ОРУДЖАЛИЕВА**

### РЕЗЮМЕ

Исследование анализирует роль военных музеев в сохранении исторической памяти, формировании национальной идентичности и укреплении идеологического единства общества. В рамках исследования рассматриваются ключевые направления, включая представление материалов о войне в контексте национальной идентичности, функции военных музеев в формировании общественного сознания, их влияние на воспитание коллективного духа борьбы, а также анализ опыта Азербайджана в области военной музейной практики. Исследование показывает, что после Второй мировой войны почти все участвовавшие государства создали военные музеи на своей территории. Для сохранения памяти о военных событиях и передачи их будущим поколениям в музеях были собраны различные документы и артефакты, а также построены мемориальные комплексы и памятники. В работе проводится сравнительный анализ азербайджанского и международного опыта.

В заключение исследования показано, что военные музеи служат не только носителями исторической памяти, но и идеологическими и образовательными платформами для передачи национальных ценностей будущим поколениям. Материалы,

полученные после Отечественной войны, предоставляют возможности для реализации различных проектов, демонстрирующих борьбу азербайджанского народа против армянского фашизма и символическое значение достигнутой победы.

**Ключевые слова:** военные музеи, карабахские войны, Вторая мировая война, военные трофеи, национальная идентичность

**MILITARY MUSEUMS IN FORMING HISTORICAL MEMORY: AZERBAIJAN AND GLOBAL CASES**

**Seide Z.GULİYEVA, Gunel İ.ORUJALİYEVA**

**SUMMARY**

The study analyzes the role of military museums in preserving historical memory, shaping national identity, and fostering the ideological unity of society. Within the research framework, key directions include the presentation of war-related materials in the context of national identity, the functions of military museums in shaping public consciousness, their impact on fostering a collective spirit of struggle, and an analysis of Azerbaijan's experience in military museum practices. Research indicates that following World War II, nearly all participating states established military museums within their territories. To preserve the memory of wartime events and transmit them to future generations, various documents and artifacts were collected in museums, and memorial complexes and monuments were constructed. The study conducts a comparative analysis of Azerbaijani and international experiences.

In conclusion, the research demonstrates that military museums serve not only as carriers of historical memory but also as ideological and educational platforms for transmitting national values to future generations. The materials obtained following the Patriotic War provide opportunities for implementing various projects that showcase the Azerbaijani people's struggle against Armenian fascism and the symbolic significance of the achieved victory.

**Keywords:** military museums, Karabakh wars, World War II, war trophies, national identity